2021-2022-ci tədris ili üzrə peşə təhsil müəssisələrinə ümumtəhsil fənn müəllimlərinin seçimi müəllimlərin işə qəbulu müsabiqəsi vasitəsilə həyata keçirilir.

Müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üçün keçirilən vakansiya seçimi mərhələsinə peşə təhsil müəssisələri üzrə 46 vakant yer çıxarılıb. Bakı və regionlar üzrə təqdim olunan vakansiyalar Azərbaycan dili və ədəbiyyat, biologiya, coğrafiya, fizika, fiziki tərbiyə, informatika, ingilis dili, kimya və riyaziyyat fənlərini əhatə edir. Namizədlərə https://www.miq.edu.az/ saytı vasitəsilə ilə şəxsi səhifələrinə daxil olaraq 4 vakant yer seçmək hüququ təqdim edilib.

Qeyd edək ki, tutulmayan yerlər üzrə Təhsil Nazirliyi tərəfindən növbəti mərhələnin keçirilməsi planlaşdırılır.